# SALAHOV ŞAKİR ŞAMİL OĞLU



15 iyun 1966-cı ildə Xocalı rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1981-ci ildə Cəmilli kənd səkkizillik məktəbini bitirmiş, təhsilini qiyabi olaraq kənddəki orta məktəbdə davam etdirmişdir. 1984-cü ildə hərbi xidmətə çağırılmışdır. 1986-cı ildə xidmətini başa vurduqdan sonra Xankəndi şəhər Daxili İşlər İdarəsinin mühafizə şöbəsində işə qəbul olunmuşdur. 1990-cı ildə Yuxarı Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Daxili İşlər Nazirliyi Cəmilli kəndində polis bölməsi yaradır. Ş. Salahov ilk gündən bölmədə fəaliyyətə başlayır. O, 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa şəhər filialında fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1991-ci il fevralın 26-da Cəmilli kəndi və 1991-ci il avqustun 23-də "Darlı" adlanan yerdə düşmənin üstün qüvvələrinə qarşı döyüşdə qəhrəmancasına vuruşub. Daha sonra Kosalar kəndi uğrunda gedən döyüşdə düşmənin xeyli canlı qüvvəsini məhv etmişdir. 28 yanvar 1992-ci ilin yanvarın 28-də Ağdam - Şuşa marşrutu ilə uçan vertolyotumuz ermənilər tərəfindən raketlə vuruldu. Həlak olanlar 44 nəfərin içərisində Ş.Salahov da vardı. Bərdə şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Salahov Şakir Şamil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.